# Azərbaycanın üçüncü Könüllü Milli Hesabatının təqdimatı olub



Birləşmiş Millətlər Təşkilatının (BMT) İqtisadi və Sosial Şurasının himayəsi ilə Yüksək Səviyyəli Siyasi Forum keçirilib.

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, forum çərçivəsində Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) icrası istiqamətində görülmüş işlər barədə Azərbaycanın üçüncü Könüllü Milli Hesabatının təqdimatı olub. Təqdimatı Azərbaycan hökuməti adından Baş nazirin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov edib.

Qeyd edək ki, Azərbaycan bu il dünyada 10 ölkədən biri olmaqla, regionda və MDB məkanında ilk dəfə Üçüncü Könüllü Milli Hesabat təqdim edir. BMT-nin müəyyən etdiyi tematik mövzuya uyğun olaraq hazırlanmış hesabatda siyasət və maarifləndirmə işləri, 2030-cu il gündəliyinin icrasına pandemiyanın təsirləri və bu təsirlərin minimallaşdırılması tədbirləri, DİM-lər üzrə əldə olunan tərəqqi və sair əksini tapıb.

Hesabatın təqdimat zamanı Baş nazirin müavini Əli Əhmədov ötən dövr ərzində ölkəmizdə DİM-lərin icrası sahəsində görülmüş işlər, səhiyyə sisteminin gücləndirilməsi, iqtisadi fəallığın bərpası, qeyri-neft sektorunun dinamik artımının təmin edilməsi, milli innovasiya sisteminin inkişafı istiqamətində atılmış addımlar barədə məlumat verib. Qeyd edilib ki, dayanıqlı inkişaf üzrə məlumatların toplanması və təhlili davamlı olaraq təkmilləşdiriləcək, DİM Maliyyələşdirmə Mexanizminin yaradılması kimi məsələlər diqqətdə saxlanılacaq.

Tədbirdə Dayanıqlı İnkişaf Platformasının həyata keçirilməsində sülhün və sabitliyin rolu vurğulanıb. 2020-ci ilin noyabrında Ermənistanla Azərbaycan arasında münaqişənin sona çatmasının regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşmasına, iqtisadi-ticarət əlaqələrinin genişlənməsinə, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmağa, Azərbaycanın və bütövlükdə, regionun inkişafına böyük təkan verəcəyi diqqətə çatdırılıb. Eyni zamanda, növbəti mərhələdə Azərbaycanın inkişaf strategiyasının əsas istiqamətini ölkəmizin işğaldan azad olunmuş və dağıntıya məruz qalmış bölgələrinin yenidən qurulmasının, məcburi köçkünlərin öz yaşayış yerlərinə qayıdışının təşkil edəcəyi bildirilib.

# Minalardan və partlamamış hərbi sursatlardan təmizləmə və hərbi-mülki əlaqələndirmə məsələləri üzrə İşçi qruplarının birgə iclası keçirilib





Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Minalardan və partlamamış hərbi sursatlardan təmizləmə və Hərbi-mülki əlaqələndirmə məsələləri üzrə İşçi qruplarının iyulun 14-də birgə iclası keçirilib.



AZƏRTAC xəbər verir ki, əvvəlcə tədbir iştirakçıları Füzuli-Zəngilan (Ağbənd) dəmir yolunun Cocuq Mərcanlı və Mehdili kəndlərinin ərazisindən keçən hissələrinin minalardan təmizlənməsi prosesi ilə tanış olublar.

Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin nümayəndəsi İdris İsmayılov bildirib ki, bu ərazidə ümumilikdə piyada və tank əleyhinə 1323 mina, 14 partlamamış hərbi sursat aşkarlanıb. Ərazilərin minalardan təmizlənməsi üç mərhələdə aparılır.

Füzuli rayonunun işğaldan azad olunmuş hissəsinin əkinaltı torpaqlarının və çoxillik əkmələrinin yerləşmə vəziyyəti barədə məlumat verən Müdafiə Nazirliyinin Mühəndis Qoşunları Baş İdarəsinin rəisi general-mayor Anar Kərimov bildirib ki, bu günədək 24 hektar sahə minalardan təmizlənib. Ümumilikdə 293 hektar sahənin minalardan təmizlənməsi nəzərdə tutulur. Burada əsasən partlamamış sursat, mərmi qalıqları aşkar olunub. Bu günədək 15 mindən çox döyüş sursatı məhv edilib.

Sonra Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğından Mühafizə Xidmətinin Füzuli Rayon Dövlət Yanğından Mühafizə Hissəsinə baxış keçirilib. Görülən işlərlə bağlı məlumat verən Füzuli Rayon Dövlət Yanğından Mühafizə Hissəsinin rəisi polkovnik Məhərrəm Məhərrəmov bildirib ki, indiyədək 178 yanğın hadisəsi baş verib. Yanğınlar dərhal söndürülüb və alovun daha böyük əraziyə yayılmasının qarşısı alınıb.

Sonra Əlaqələndirmə Qərargahının nəzdindəki "Minalardan və partlamamış hərbi sursatlardan təmizlənmə üzrə" və "Hərbi-mülki əlaqələndirmə məsələləri üzrə" İşçi qruplarının birgə iclası keçirilib.

Qərargahın gördüyü işlər barədə məlumat verən Əlaqələndirmə Qərargahının nəzdindəki İdarələrarası Mərkəzin sədr müavini Nüsrət Süleymanov bildirib ki, istər minatəmizləmə sahəsində gündəlikdə duran məsələlər, istərsə də mülki əlaqələr üzrə qərarların qəbul edilməsi, həmçinin Prezident İlham Əliyev tərəfindən Qərargahın qarşısında qoyulan tapşırıqlar barədə ətraflı fikir mübadiləsi aparılır. Bu cür iclasların keçirilməsində əsas məqsəd işçi qrupların və üzvlərinin ərazilərdə aparılan işlərlə yaxından, praktiki tanış olmasını, həmçinin işçi qrupların fəaliyyətinin daha səmərəli təşkilini təmin etməkdir.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahına Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev rəhbərlik edir.

# "Xalqımız 15 iyulda demokratiyaya sadiqliyini bir daha bütün dünyaya nümayiş etdirdi"

## ***Cahit Bağçı:*** *Beş il öncə guya Türkiyəni təmsil edirmiş kimi kamuflyaj olan FETÖ bu gün dünyada Türkiyəyə qarşı olan bütün təşkilatlarla birgə hərəkət edir*

***Fətullahçı terror təşkilatının (FETÖ) Türkiyədə dövlət çevrilişinə cəhd göstərməsindən beş il keçir. Düz 5 il əvvəl, 2016-cı il iyulun 15-də baş verənlər Türkiyə ilə yanaşı, bütün Türk dünyasında narahatlıq və həyəcanla qarşılandı. İllərboyu addım-addım dövlətin içində özünə yuva quran bu terror təşkilatı həmin gecə Türkiyədə qanuni hakimiyyəti devirmək üçün silaha əl atdı, qan tökdü. Amma xainlər və onların xaricdəki ağaları istəklərinə nail ola bilmədilər. 2016-cı il 15 iyul gecəsində 251 şəhid verən Türkiyə xalqı İstiqlal savaşından sonra növbəti dəfə qəhrəmanlıq dastanı yazdı. Bu, Türkiyə və dünya tarixində mühüm yeri olan hadisədir. Elə Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı ilə müsahibəmizdə də 15 iyul hadisələri ilə bağlı suallara cavab aldıq.***

### PREZİDENTİN ÇAĞIRIŞINA SƏS VERƏN XALQ ÖZ DÖVLƏTİNƏ SAHİB ÇIXDI

**- Cənab səfir, sizinlə 15 iyul dövlət çevrilişinə cəhdin beşinci ildönümü ərəfəsində görüşürük. Ümumiyyətlə, 15 iyul hadisələrini necə xarakterizə edə bilərsiniz?**

- Təşəkkür edirəm. Sualınıza cavab olaraq öncə qeyd edim ki, Türkiyədə 2016-cı ilə qədər dəfələrlə dövlət çevrilişi, yaxud hökumətlərin zorla istefaya göndərilməsi halları baş vermişdi. Amma Türkiyəyə böyük acılar yaşadan bu çevrilişlər, adətən, ya yuxarıdan aşağıya, yəni əmir komuta zənciri içərisində, yaxud da xuntaçı bir qurumun üsyanı nəticəsində reallaşmışdı. İlk hərbi çevriliş 1960-cı ildə oldu. Bundan sonra, 1972, 1974, 1980, 1997 və 2007-ci illərdə çevriliş, yaxud muxturalar gerçəkləşdi. Bütün bu çevrilişlərin ssenarisi eyni idi. Hamısında ordunun dövlətin həyata keçirdiyi siyasətdən narahat olduğu dilə gətirildi və hərbçilər hökumətə qarşı çıxdı. Hərbçilər hər dəfə Cümhuriyyəti qoruduqlarını iddia etdilər. 15 iyul dövlət çevrilişinə cəhd isə tamamilə fərqli çərçivədə baş verdi. 15 iyul dövlətin içində yuvalanmış (biz ona "paralel dövlət" deyirik - C.B), dövlətin bütün qurumlarına sızmış, məqsədləri, məramları nə olduğu bilinməyən kripto bir terror təşkilatının dövləti ələ keçirmə layihəsinin reallaşmasına cəhd idi. Lakin bu terroçular, xainlər öz istəklərinə nail ola bilmədilər. Çünki Prezidentin çağırışına səs verən xalq öz dövlətinə, qanuni hakimiyyətinə sahib çıxdı. Yəni, həmin gecə terrorçular Türkiyə Cümhuriyyətini qorumaq üçün ayağa qalxan, Prezident Rəcəb Tayyib Ərdoğanın çağırışından sonra küçə və meydanlara axışan türk xalqı ilə qarşılaşdılar. Tankın üzərinə belə qorxmadan, əliyalın yürüyən xalqımız terror təşkilatının dövlət çevrilişi cəhdinin qarşısını mətanətlə aldı və demokratiyaya sadiqliyini bir daha bütün dünyaya nümayiş etdirdi. Həmin gecə xalqımız, dövlətimiz 251 şəhid verdi. O müdhiş gecədə qəhrəmanlıq göstərən 2193 qazimiz, yaralımız var. Şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə isə şəfa diləyirik. Beləliklə, sualınıza qayıdaraq demək istəyirəm ki, 15 iyul Türkiyə xalqının yenidən özünü təsdiqi idi. Həmin gecə bütün dünya bir daha əmin oldu ki, söz Vətəndən, bayraqdan gedəndə millət Qarabağda olduğu kimi, gərəyini edir. Bu gün, o müdhiş hadisədən beş il sonra olanları təhlil edərkən bir reallığı da görürük. Bu da FETÖ-nün gerçək üzünün, gerçək niyyətinin artıq ortaya çıxmasıdır. Yəni beş il öncə guya Türkiyəni təmsil edirmiş kimi kamuflyaj olan FETÖ bu gün dünyada Türkiyəyə qarşı olan bütün təşkilatlarla birgə hərəkət edir.

### ONLAR FETÖ-NÜN İTAƏT SİSTEMİ İLƏ İDARƏ OLUNURDULAR

**- Cənab səfir, bu, bir acı reallıqdır ki, həmin gecə dövləti qoruyanlar kimi, çevrilişə cəhd edənlər də Türkiyə vətəndaşları idi. Yəni bu kimi hadisələrin bir də olmaması üçün hazırda bu istiqamətdə işlər gedirmi?**

- Çox doğru bir məqama toxundunuz. Bəli, həmin gecə dövlətə qarşı çıxanlar məhz dövlətin qurumlarına sızmış, dövlətin çörəyini yeyən, suyunu içənlər idi. Amma nə yazıq ki, onlar dövlətə xidmət etmirdilər. Xidmət etdikləri, belə deyək, itaət etdikləri başqa məkanlar, başqa qüvvələr idi. Çünki onlar FETÖ-nün itaət sistemi ilə idarə olunurdular. Baxırdın ki, kiçikrütbəli bir zabit generala əmr verirdi. Biz bunun acısını yaşadıq. Bundan sonra bir daha bunların olmaması üçün isə lazımi tədbirlər görülür və gələcəkdə də görüləcək.

**- Bəs 15 iyuldan sonrakı Türkiyə barədə nə deyə bilərsiniz? 15 iyuldan sonra Türkiyə nələrə nail oldu?**

- Əslində, 15 iyulu dərindən analiz etmək üçün bir qədər ondan əvvələ baxmaq lazımdı. Söhbət 2015-ci ildə keçirilən növbədənkənar seçkilər ərəfəsində Türkiyədə cərəyan edən hadisələrdən gedir. Həmin vaxt elə bir fikir formalaşdırılmışdı ki, sanki Türkiyə idarə edilə bilmir. Hətta 7 iyun 2015-ci il seçkiləri ərəfəsində iqtidar parlamentdə çoxluğu itirmişdi. O dönəmdə parlamentdə 276 deyil 258 millət vəkilimiz vardı. Məhz belə bir vaxtda erkən seçim qərarı verildi və seçkiərdə AK Parti qalib gələrək təkbaşına iqtidar qurdu. Həmin vaxt Türkiyənin sərhədlərində də, İraqda, Suriyada problemlər yaradılmışdı. Bütün bunların fonunda dövlət çevrilişinə cəhd edildi. Yəni daxili və xarici düşmənlərimiz ölkəni xaosa sürükləmək üçün hər vasitəyə əl atdılar. Lakin başda Prezidentimiz olmaqla xalqımız xainlərə imkan vermədi. Eyni zamanda, 15 iyul dövlət çevrilişindən gərəkli dərslər çıxarıldı. Bir daha buna bənzər hadisələrin olmaması üçün, daha güclü idarəçiliyin, daha güclü dövlət modelinin ortaya qoyulması üçün sistem dəyişikliyinin vacib olduğu üzə çıxdı. Nəticədə bu gün Türkiyə daha güclü bir hala gəlib. Bu gün dünyadakı bir çox siyasətçilər "dünya lideri Ərdoğan" deyir. Bu gün Türkiyə öz hərbi potensialı ilə də önə çıxıb. Bu gün dünya Türkiyənin İHA, SİHA, Bayraqdar və s. hərbi texnika və silahlarının nəyə qadir olduğunu bilir. Amma biz bu silahları hamıya verməyi düşünmürük. Ancaq dostlarımıza. Çünki bunlar strateji məhsullardır. Bir sözlə, 15 iyuldan sonra Türkiyə ordusunu, hərbi texnikasını, həmçinin texnologiyasını gücləndirmiş, öz döyüş gəmilərini, təyyarələrini, tanklarının, raketlərini istehsal edən güclü bir dövlətə çevrilib.



### ƏSL QARDAŞLIQ BAX BUDUR VƏ BUNU AZƏRBAYCAN GÖSTƏRDİ

**- Cənab səfir, 15 iyulda Azərbaycanın sərgilədiyi mövqe barədə nə deyə bilərsiniz?**

- Həmin gecə FETÖ ilə mübarizədə Türkiyəyə ən böyük dəstək Azərbaycandan gəldi. Başda cənab Prezident İlham Əliyev olmaqla Azərbaycan dövləti və xalqı 2016-cı il iyulun 15-də Türkiyənin Konstitusiyasına, demokratiyasına qarşı yönəlmiş bu cinayəti qətiyyətlə pislədi və qəbuledilməz hesab etdi. Türkiyədəki Azərbaycan vətəndaşları da həmin gecə Rəcəb Tayyib Ərdoğanın yanında olduqlarını, dövlətin yanında olduqlarını nümayiş etdirdilər. Yəni bir daha bütün dünya bildi ki, sevinci də, kədəri də birdir ölkələrimizin. Əsl qardaşlıq bax budur və bunu Azərbaycan göstərdi. Bu dəstəyə görə bir daha cənab Prezident İlham Əliyev başda olmaqla Azərbaycan dövlətinə və xalqına minnətdarıq. Eyni zamanda, digər dost ölkələr də həmin gecə Türkiyə dövlətinin və xalqının yanında olduğunu bəyan etdi. Amma bunu bəzi Avropa ölkələri barədə demək mümkün deyil. Çünki onlar uzun müddət susmağa üstünlük verdilər.

**- Son sualım. Bu gün Türkiyə FETÖ-dən təmizlənir. Amma reallıq budur ki, bəzi ölkələrdə FETÖ hələ də ayaqdadır. Onlara nə çağırış edərdiniz?**

- Biz dövlət çevrilişinə cəhddən sonra bütün qurumlarımızla FETÖ təhdidinə qarşı fəaliyyətə keçdik. Broşürlər hazırladıq. Mən şəxsən getdiyim bir çox ölkələrə bu broşürləri apardım, payladım. İzah etdim ki, bu təkcə Türkiyənin problemi deyil. Bu sizin də probleminizdir. Vaxtında tədbir görməsəniz sizi də içəridən ələ keçirər, dövlət qurumlarınızı ələ keçirmək üçün hərəkət edərlər. Bunlar kripto bir təşkilatlanmadır. Bir hücre tipidir. 3-5 nəfərdən kənarda kimsə bir-birini tanımaz. Bunları anlatdıq. FETÖ təhlükəsi barədə xəbərdarlıq etdik. Nəticədə, FETÖ bir çox ölkədən qovuldu. Düzdür hazırda onlar cənub şərqi Asiyada, Afrikanın bəzi ölkələrində özlərinə, necə deyərlər, yuva qurublar. Eyni zamanda, hər kəs bilsin ki, bunlar artıq Amerikada və Avropada Türkiyənin əleyhinə olan xarici terror təşkilatları ilə birlikdə hərəkət edirlər. Biz xəbərdarlığımız etmişik. Bundan nəticə çıxaran ölkələr olduğu kimi, nəticə çıxarmayanlar da var. Hələ də FETÖ-yə qucaq açan ölkələrə isə bir daha demək istəyirik ki, nə qədər gec deyil, bu bəladan xilas olun. Yoxsa sonra gec olacaq.

**Nadir AZƏRİ**

# Prezident İlham Əliyev diplomatiyasının növbəti uğuru: iqtisadi rayonların yeni bölgüsü haqqında Fərman tarixi hadisədir

İyulun 7-də möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandan İlham Əliyev Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında tarixi Fərman imzaladı. Milli sərhədlərimiz çərçivəsində iqtisadi rayonların sayının 11-dən 14-ə yüksəldilməsi, Azərbaycanın tarixi, əzəli torpaqlarına aid toponimin - Şərqi Zəngəzurun rəsmi dövlət sənədində qeyd olunması, işğaldan azad olunan bütün ərazilərimizlə bağlı strateji hədəflərin bəyan edilməsi və hələ də bəzi siyasi oyunbazların Xankəndi, Xocalı, Xocavənd haqqında əsassız spekulyativ çıxışlarını alt-üst etməsi bu Fərmanın siyasi, iqtisadi, strateji, həm də tarixi əhəmiyyətini birə yüz artırır. Bu yeni iqtisadi təsnifat ciddi siyasi, strateji və tarixi elementlərə malik olmaqla 100 il əvvəl bu bölgədə əsası qoyulan bütün münaqişələrin, bölünmələrin, Azəbaycana qarşı ərazi iddialarının üstündən birdəfəlik xətt çəkdi. Bu Fərman ölkə başçımızın böyük uzaqgörənliklə səsləndirdiyi "Cəhənnəmə getdi status, gora getdi status, gorbagor oldu status, yoxdur status və olmayacaq..." bəyanatının sənədli, möhürlü təsdiqidir. Unikal siyasi idarəetmə bacarığı olan dövlət başçımızın lazımi məqamda imzaladığı bu sənəd 15 iyun tarixli Şuşa Bəyannaməsindən sonra Ermənistanda azğınlaşan revanşist bəyanatsevərlərə növbəti sarsıdıcı zərbə oldu. Eyni zamanda, 30 ildir Azərbaycanın tarixi, əzəli torpağı olan Qarabağ ətrafında hörümçək toru kimi toxunan status məsələsini də, sözün əsl mənasında, cəhənnəmə göndərdi. İqtisadi cəhətdən Qarabağ və Şərqi Zəngəzur rayonlarının yaradılması Azərbaycan dövlətinin işğaldan azad olunan ərazilərinin tezliklə bərpası və inkişafı ilə bağlı strateji hədəflərini açıqlayır. Bu yeni təsnifat birmənalı olaraq milli iqtisadiyyatımızın bütövləşməsinə və milli iqtisadi potensialımızın daha da yüksəlməsinə xidmət edəcəkdir.



**Şəmsəddin Hacıyev**
**Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının sədri, professor**

44 günlük Vətən müharibəsində Azərbaycanın tarixi Qələbəsi və regionda işğal faktoruna birdəfəlik son qoyulması həm Cənubi Qafqazda, həm də yaxın coğrafiyada tamamilə yeni geosiyasi və geoiqtisadi reallıqlar və region ölkələri üçün yeni çağırışlar, eyni zamanda, əməkdaşlıq üçün yeni formatlar və imkanlar formalaşdırdı. Azərbaycanın iqtisadi rayonlarının yeni təsnifatı bu yeni şərtlər və siyasi-iqtisadi reallıqlar baxımından milli iqtisadiyyatımıza daha sistemli və kompleks yanaşmanı təmin edəcək və işğal nəticəsində dağıdılmış, viran qoyulmuş Qarabağ bölgəsinin və tarixi Zəngəzur yaylasının şərq hissəsində yerləşən Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər rayonlarının sürətli bərpasına, həmin rayonların iqtisadi potensialına uyğun yeni layihələrin icrasına, bu ərazilərə investisiya qoyuluşlarının və xarici investorların cəlbinə, bir sözlə, bu bölgənin dağmədən, torpaq, su, enerji və insan resurs potensialının və turizm imkanlarının səmərəli istifadəsinə və milli iqtisadiyyatımıza reinteqrasiyasına şərait yaradacaqdır. Qarabağ bölgəsinin zəngin torpaq resursları, bu bölgədə əkinçilik, taxılçılıq üçün mövcud imkanlar, Şərqi Zəngəzurda heyvandarlığın inkişafı üçün mövcud geniş yaylalar, Cənubi Qafqazın İsveçrəsi kimi xarakterizə olunan bu bölgənin tarixi, mədəni, dini, ekoloji, rekreasyon turizm potensialı, mövcud su, külək, günəş enerjisi mənbələri nəzərə alınmaqla daha rasional əmək bölgüsünün, ixtisaslaşma və kooperasiyanın ən müasir modellərinin tətbiqinə real imkanlar yaradacaq, xüsusilə aqrar sektorun və kənd təsərrüfatı məhsullarının emalı sahələrinin, turizmin dinamik inkişafına töhfə verməklə milli ərzaq təhlükəsizliyinin və enerji infrastruktunun gücləndirilməsində, iqtisadiyyatımızın şaxələndirilməsində, qeyri-neft sektorunun inkişafında, eləcə də beynəlxalq iqtisadi əlaqələrin daha da genişləndirilməsində mühüm rol oynayacaqdır.

Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü qeyd olunan iqtisadi əhəmiyyəti ilə yanaşı, ciddi siyasi, strateji hədəfləri də özündə ehtiva etməkdədir. Fərmanda Xankəndi, Xocalı, Xocavəndin vurğulanması "Dəmir yumruğun" siyasi iradəsinin növbəti nümayişidir. Bu Fərman qeyd olunan rayonların Azərbaycana aid olduğunu, iqtisadi potensiallarının milli iqtisadiyyatımıza daxil ediləcəyini birmənalı olaraq təsdiq etməklə istər Qarabağ bölgəsi, istərsə də Zəngəzur dəhlizi, Naxçıvan və Türkiyə vasitəsilə daha geniş regiona və bazarlara çıxışın əldə olunması ilə bağlı Azərbaycanın strateji hədəflərini bəyan edir. Möhtərəm Prezidentimiz imzaladığı Fərmanda tarixi Zəngəzur toponimini vurğulamaqla növbəti dəfə cəsarət diplomatiyası nümunəsi göstərdi. Azərbaycan 44 günlük Vətən müharibəsində tarixi ədaləti bərpa etdi və işğaldan azad olunan torpaqlarımızda bu gün Azərbaycan xalqının tarixi, mədəni, dini irsi bərpa olunur, haqq zəfər çalır. Bu möhtəşəm və sözlə ifadə olunması mümkün olmayan nəhəng tarixi nailiyyətə, müstəqil dövlətçiliyimizin ən şanlı, şərəfli səhifələrinə görə Azərbaycan xalqı Qalib Sərkərdəmizə, Müzəffər Ali Baş Komandanımıza minnətdardır.

XIX əsrdən başlayaraq ermənilərin məqsədli şəkildə qədim Azərbaycan torpaqlarına köçürülməsi və Zəngəzurun Azərbaycan xalqının iradəsinə zidd olaraq Qərbin və SSRİ-nin təzyiqi ilə Ermənistan SSR-yə verilməsi Türk dünyasına, Türk birliyinə qarşı edilən ən böyük xəyanətdir. Həqiqətən də, Türk dünyasının iki görkəmli lideri - İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan 44 günlük Vətən müharibəsində qazanılan şanlı qələbə ilə iki qardaş ölkənin, Azərbaycan və Türkiyənin, türk millətinin gücünü, cəsarətini, əzmini, iradəsini, igidliyini, tarixi köklərinə və milli-mənəvi dəyərlərinə bağlılığını bütün dünyaya nümayiş etdirdi. Tarixi Şuşa Bəyannaməsi, Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsündə Zəngəzur yaylasının vurğulanması bu regionun Şimal-Cənub, Şərq-Qərb nəqliyyat qovşaqları üçün strateji əhəmiyyətini, eləcə də Azərbaycan və Türkiyənin birlikdə regionun yeni güc mərkəzi kimi bu coğrafiyada sülhün, təhlükəsizliyin və əməkdaşlığın başlıca qarantı olduqlarını bir daha təsdiq etdi.

Azərbaycan döyüş meydanında əzəli düşmənimiz üzərində əldə etdiyi möhtəşəm qələbəni indi diplomatik müstəvidə, siyasi və iqtisadi əsaslarla möhkəmləndirir. Erməni təbliğat maşınının yalan propaqandasına baxmayaraq, möhtərəm Prezidentimizin uğurlu xarici siyasəti nəticəsində Azərbaycan və Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlər beynəlxalq ictimaiyyət tərəfindən də təsdiqləndi. "Dəmir yumruq" və düşünülmüş siyasət nəticəsində dünya 44 günlük Vətən müharibəsində Azərbaycanın tarixi, siyasi, hüquqi və mənəvi haqq mübarizəsinə şahidlik etdi və Azərbaycanın haqlı mövqelərini dəstəklədi. Ermənistanın hazırkı acınacaqlı vəziyyəti 30 illik işğalçılıq siyasətinin, kriminal hökumətlər tərəfindən erməni xalqına təbliğ olunan yalanların nəticəsidir. Erməni xalqı artıq nə iqtidarına, nə müxalifətinə etibar edir. Ölkə rəhbərimizin uğurlu, cəsarətli diplomatiyası bu ölkəni elə bir siyasi, iqtisadi təcrid vəziyyətinə salıb ki, Ermənistan 10 noyabr tarixli rüsvayçı hərbi kapitulyasiya aktından sonra uydurmalar üzərində qurulmuş bütün diplomatik mövqelərini də itirmişdir. Güclü dövlətin güclü liderinin siyasətinin təntənəsidir ki, Ermənistan 10 noyabr tarixli Bəyanatda üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyə məcburdur. Əminliklə deyə bilərik ki, möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə bütün məsələlər sistemli şəkildə ardıcıl olaraq öz vaxtında, ən düzgün zamanda həll olunacaq, işğaldan azad olunan ərazilərimiz minalardan təmizlənəcək, o bölgələrdə qısa müddətdə möhtəşəm infrastruktur qurulacaq və Azərbaycan xalqı tezliklə ata-baba yurdlarına qayıdacaq. Bu gün Qarabağımızda, hər bir qarış Vətən torpağında Azərbaycan xalqının tarixi, mədəni, dini irsi yüksək zövqlə, milli-mənəvi dəyərlərimizə sadiqliklə, milli koloritdə bərpa olunur. İllər sonra Azərbaycan xalqının Vətən həsrətinə son qoyuldu, tarixi Cıdır düzündə səsləndirilən "Bayatı-Şiraz", aid olduqları ata yurduna, Şuşaya qayıdan Üzeyir bəy Hacıbəyovun, Xan qızı Nətavanın, Bülbülün heykəlləri, inşası sürətlə davam edən "Zəfər yolu" xalqımızın Qarabağımıza Böyük Qayıdışının ilk addımlarıdır. Biz Prezidentimizlə, dövlətimizlə qürur duyuruq və Azərbaycanın yeni Şanlı tarixinin yazılışına şahidlik edirik.